# E-qeydiyyatın tətbiqi haqqında

Son illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan Respublikasında biznesə başlama prosedurları əsaslı surətdə sadələşdirilmişdir. Belə ki, 2011-2012-ci illərdə ölkəmizdə aparılmış “Eqeydiyyat” islahatı sahibkarların biznesə başlaması prosedurlarını əhəmiyyətli dərəcədə asanlaşdırmasına şərait yaratmışdır.

Fərdi sahibkarların “e-qeydiyyat” sistemi 2011-ci ilin 1 iyul tarixdən başlamaqla müvəffəqiyyətlə tətbiq edilməkdədir. 01.01.2019-cu il tarixədək Azərbaycanda 89 min fərdi sahibkarın qeydiyyatı bu üsulla aparılmışdır. 2012-ci ilin nəticələrinə görə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin 70%-i vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanmışdır.

Fiziki şəxslər vergi uçotuna dayanmaq üçün Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində “Fərdi sahibkarların onlayn qeydiyyatı” bölməsinə (https://www.etaxes.gov.az/#) daxil olaraq vergi qeydiyyatından keçirlər.

2012-ci ilin fevral ayından isə Azərbaycan Respublikasında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin də qeydiyyatı elektron üsulla aparılmaqdadır. Kommersiya hüquqi şəxslərin “e-qeydiyyat” sisteminin tətbiqi üçün Azərbaycan Respublikasının 4 qanunvericilik aktına dəyişikliklər edilmişdir. Bu qanunların qüvvəyə minməsi yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlər üçün qeydiyyat öncəki prosedurlara olan tələbləri tamamilə aradan qaldırmış və elektron imzadan istifadə etməklə sənədlərin qeydiyyat orqanına təqdim etmə imkanını yaratmışdır.

1 yanvar 2019-cu il tarixdən başlamaqla Azərbaycanda kommersiya hüquqi şəxslərin (ərizənin təqdim edilməsindən hüquqi şəxsin qeydiyyat sənədlərinin elektron qaydada əldə edilməsinədək) 1 gün ərzində 1 prosedurla qeydiyyata alınmasını mümkün edən yeni elektron sistem tətbiq edilməyə başlamışdır.

“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda (28.12.2018-ci il, 1447-VQD - http://e-qanun.az/framework/41134) və Əmək Məcəlləsində (28.12.2018-ci il, 1448-VQD - http://e-qanun.az/framework/41136) aparılmış dəyişikliklərə əsasən İnternet Vergi İdarəsinə yanlız mobil telefon nömrəsi və FİN kod ilə daxil olmaqla kommersiya hüquqi şəxsin onlayn qeydiyyatını 1 gün ərzində 1 prosedurla elektron qaydada həyata keçirmək mümkündür (https://login.e-taxes.gov.az/login/).

Bunun üçün elektron imza (ASAN imza) tələb olunmur.

Eyni zamanda, kommersiya hüquqi şəxsin elektron dövlət qeydiyyatına alınması üçün onlayn qaydada ərizə doldurularkən (ərizənin linki) həmin ərizəyə işə götürüləcək işçilər barədə məlumatlar da daxil edilir və həmin şəxslərlə əmək münasibətləri qeydiyyat sənədləri (dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə) hüquqi şəxsin elektron kabinetinə göndərildiyi andan yaranır.

Nəticədə 1 gün ərzində bütün qeydiyyat sənədləri ilə birlikdə elektron kabinetə göndərilmiş VÖEN fəaliyyətə başlamaq üçün hüquqi əsas hesab olunur.

Bununla yanaşı, yeni islahata əsasən həm elektron, həm də adi qeydiyyat zamanı qeydiyyat sənədləri yalnız elektron kabinetə göndərilir və heç bir halda həmin sənədlərin kağız daşıyıcılarda götürülməsinə yol verilmir.

Elektron kabinetə göndərilən sənədlərin aidiyyəti dövlət qurumları, banklar, notariuslar tərəfindən hüquqi əsas kimi qəbul olunması üçün həmin sənədlər müvafiq Bar-kodla şifrələnir.

"İnzibati icraat haqqında" Qanunda (28.12.2018-ci il, 1446-VQD - http://e-qanun.az/framework/41171) edilmiş dəyişikliyə əsasən kommersiya hüquqi şəxslərə elektron qaydada göndərilmiş və müvafiq Bar-kodla şifrələnmiş bütün qeydiyyat sənədləri hüquqi əsas kimi qəbul olunur və bu sənədlərin təkrarən kağız daşıyıcılarda təsdiqlənmiş formasının tələb edilməsi qadağandır. Bu da hüquqi şəxsləri aidiyyəti orqanlara müraciətlər zamanı kağız daşıyıcıda sənədlər təqdim etmək öhdəliyindən azad edir.

Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində aparılmış islahatlar nəticəsində hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyə azaldılmış, biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilmişdir.

Aparılmış islahatlar hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində elektronlaşmanın səviyyəsinin artırılmasına yönəlmişdir. Belə ki, 2019-cu ilin 6 ayı ərzində dövlət qeydiyyatına alınmış yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin 72 %-i elektron qaydada dövlət qeydiyyatına alınmışdır.